# Azərbaycan paralimpiyaçılarının möhtəşəm uğuru

***Paralampiya oyunlarının tarixi 1948-ci ildən başlanır. Həmin il məşhur neyrocərrah Lüdviq Qoutmanın təşəbbüsü ilə London Olimpiya Oyunlarının açılış mərasimində ilk dəfə olaraq kolyaskalı idmançılar da iştirak etmişlər. Məhz bu hadisə paralimpiya oyunlarının yaranma tarixi olaraq qəbul edilir. Rəsmi olaraq ilk paralimpiya oyunları isə 1960-cı ildə Romada keçirilmişdir. Oyunlarda 23 ölkəni təmsil edən 400 idmançı iştirak etmişdir. Lakin ilk vaxtlar paralimpiya oyunları Yay Olimpiya Oyunlarından fərqli ildə və başqa yerdə keçirilirdi. Müxtəlif dövlətlərin paralimpiya komitələrindən rəsmi təkliflər gəlməsinə baxmayaraq, bu ənənə uzun illər davam etmişdir. Nəhayət, 1988-ci il Seul Yay Olimpiya Oyunlarından etibarən paralimpiya oyunları Yay Olimpiya Oyunları ilə eyni şəhərdə və eyni ildə keçirilməyə başlamışdır.***



Növbəti illər ərzində paralimpiya oyunlarında yaranan bəzi qarışıqlıqlara və etirazlara baxış keçirilmiş, bununla da idmançılar arasında əlillik kateqoriyaları yaradılmışdır. Yalnız bundan sonra əlillik dərəcələri doğru şəkildə dəyərləndirilməyə başlanmışdır. Daha sonra qəbul edilən qərara əsasən eşitmə və qavrama problemləri istisna olmaqla, əlilliyinin növündən asılı olmayaraq, bütün idmançılar bu yarışlarda iştirak edə bilərdi.

Azərbaycanda isə Milli Paralimpiya Komitəsinin yaranması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü ilə 1996-cı il fevralın 9-da Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsi yaradıldı. Azərbaycan ilk dəfə olaraq elə həmin il Atlantada keçirilən X Yay Paralimpiya Oyunlarında iştirak etmişdir. Oyunlara cəmi iki idman növündə yarışan iki idmançı ilə qatılmağımıza baxmayaraq ümummilli lider Heydər Əliyev paralimpiyaçılarımızla şəxsən görüşüb, onlara uğurlar arzulamışdır. Növbəti paralimpiya oyunlarında da ulu öndər idmançılarımızın təlim-məşq bazasını ziyarət etmiş və burada heyətimizi Sidneydəki Paralimpiya Oyunlarına yolasalma mərasimində iştirak edərkən Sumqayıt şəhərində beynəlxalq standartlara cavab verəcək Paralimpiya İdman Kompleksinin tikilməsi üçün tapşırıq vermişdir.



Bundan əlavə həmin illərdə Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev də idmançılarımızla bir neçə dəfə görüşmüşdür. Bütün bunlar onu göstərir ki, Azərbaycanda idmana olduğu kimi paralimpiya idman növlərinə də diqqət və qayğı yüksək səviyyədədir. Təsadüfi deyil ki, həmin dövrdən başlayaraq, ölkəmizdə paralimpiya idman növləri sürətlə inkişaf etməyə başladı. Bu, ölkəmizdə həyata keçirilən gənclər və idman siyasətinin önəmli istiqamətlərindən birini təşkil edir. Belə ki, ölkəmizdə əlilliyi olan insanların, uşaqların normal həyata uyğunlaşmaları üçün müxtəlif layihələr icra edilir. Bunlardan biri də bu kateqoriyaya aid olan şəxslərin, xüsusilə də uşaqların idman sahələrinə yönəldilməsidir. Bu sayədə onlar yaşıdlarından geri qalmır, istər cəmiyyətə, istərsə də idmana adaptasiya olurlar.






Ümummilli liderin tapşırığı ilə Sumqayıtda yaradılan Paralimpiya İdman Kompleksinin açılış mərasimi 2008-ci ildə həyata keçirildi. Yeri gəlmişkən, qeyd edək ki, bu kompleks MDB məkanında beynəlxalq standartlara yüksək səviyyədə cavab verən ilk paralimpiya idman qurğusudur.



Bu gün əminliklə söyləmək olar ki, milli paralimpiyaçılarımız dövlət dəstəyini və şəxsən ölkə başçısı İlham Əliyevin xüsusi diqqətini daim hiss edirlər. İstər yarışlarda iştirak edən idmançılarımız, istərsə də məşqçilər hər zaman Prezident İlham Əliyev tərəfindən orden və medallarla mükafatlandırılırlar. Bundan əlavə, onların rifah səviyyəsinin yaxşılaşdırılması üçün müntəzəm işlər görülür, idmançılarımız mənzil və fərdi avtomobillərlə təmin edilirlər. Bunun məntiqi nəticəsi kimi, son illər ölkəmizdə paralimpiya idman növləri üzrə dinamik inkişaf müşahidə edilir. Belə ki, Azərbaycanda paralimpiya idman növlərinin sayı ildən-ilə artır.




Yeri gəlmişkən, qeyd edək ki, hazırda Yaponiyanın paytaxtı Tokio şəhərində Pralimpiya Oyunları davam edir.



2020-ci ildə keçirilməsi planlaşdırılan oyunlar pandemiya səbəbindən bu ilə təxirə salınmışdı. Avqustun 24-də start götürən 16-cı Yay Paralimpiya Oyunları Azərbaycan paralimpiyaçıları üçün uğurla davam edir. Belə ki, yarışların bitməsinə 5 gün qalmış komandamızın aktivində 10 qızıl və 4 bürünc medal var. Bu göstərici ilə ümumi sıralamada hələlik 9-cu yerdə qərarlaşan Azərbaycan paralimpiyaçıları həm də indiyə qədər oyunlarda əldə etdiyimiz ən yüksək nəticəyə nail olublar. Müqayisə üçün qeyd edək ki, 2016-cı ildə keçirilən Yay Paralimpiya Oyunlarında millimiz 1 qızıl, 8 gümüş və 2 bürünc medal qazanmışdı. Bu, ölkəmizdə paralimpiya idman növlərinə və idmançılarımıza dövlət səviyyəsində diqqət və qayğının təcəssümüdür. Medal qazanan idmançılarımızı təbrik edir, onların bundan sonra yarışlara qatılacaq həmkarlarına isə uğurlar arzulayırıq.

***İmran ƏLİYEV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 1 sentyabr.- S.3.